Xalq qəzeti.- 2021.- 1 iyul.- S.10.

# Avro – 2020-nin daha bir sensasiyasını Ukrayna yazdı



**İyunun 29-da Avro – 2020-nin 8/1 finalı İngiltərə –Almaniya və İsveç – Ukrayna qarşılaşmaları ilə başa çatdı. Hər iki matç futbol mütəxəssisləri və azarkeşlər üçün gözlənilməz oldu. Alman "maşını"nın çökməsi müəyyən mənada gözlənilən idisə, Ukraynanın Avropa çempionatının 4/1 finalına çıxmaqla tarix yazması isə elə də real görünmürdü. Əvvəlcə İngiltərə – Almaniya qarşılaşması haqqında bəzi maraqlı məqamları xatırladaq.**

## Yoahim Löv erası başa çatdı

Qrup mərhələsində Almaniya millisinin Fransaya minimal hesabla məğlub olması, Portuqaliya yığma komandasına əsasən rəqib oyunçuların iki avtoqolu sayəsində qalib gəlməsi, Macarıstan millisi ilə qarşılaşmada yalnız möcüzə sayəsində heç-heçəyə nail olub pley-offa vəsiqə qazanması artıq Yoahim Lövün komandasının ciddi problemləri olduğunu, "alman maşını"nın zəifləməsini nümayiş etdirirdi.



Futbol mütəxəssisləri bildirirlər ki, bu, gözlənilən idi. Çünki Yoahim Lövün baş məşqçi kimi karyerası başa çatır. Löv 15 ildir, daha dəqiq desək 14 il 352 gündür ki, Almaniya yığma komandasının baş məşqçisidir. Avropada onun qədər milli komandalarda baş məşqçi işləyən ikinci bir mütəxəssis yoxdur.

İyunun 29-da Almaniyanı "Uembli"də məğlub edən İngiltərə millisi Lövün baş məşqçi olduğu müddətdə 5 mütəxəssis dəyişib. Ötən əsrin 40-cı illərində ingilislər bir dəfə Dünya çempionu titulunu və 4 dəfə Dünya və Avropa çempionatlarının final mərhələsinə vəsiqə qazanmaq üçün 19 məşqçinin xidmətindən istifadə ediblər. Löv isə Almaniya millisi ilə bütün bunlara tək başına, həm də 5 dəfə daha tez nail olub.

Bütün bunlar xüsusi bir yazının mövzusu olduğu üçün bu məqalədə yalnız Almaniya millisi ilə İngiltərə yığma komandası arasında qarşılaşmaların tarixinə ötəri nəzər salmaqla kifayətlənmək istərdik.

Avropanın bu iki nəhəng futbol komandaları arasında qarşıdurmanın nə vaxtdan "müharibə"yə çevrildiyini demək çətindir. Amma mütəxəssislər bunun 1990-cı ildən başladığını yazırlar. Həmin il Dünya çempionatının yarımfinal mərhələsində əlavə vaxtdan sonra finala hansı komandanın çıxmasına 11 metrlik zərbələrlə aydınlıq gətirildi və AFR millisi İngiltərə yığmasını məğlub etdi. Finala vəsiqə qazanan almanlar Dünya çempionu tituluna sahib oldular. Məhz həmin qarşılaşmada İngiltərənin məşhur futbol ulduzu və hazırda dünyada tanınmış futbol eksperti və televiziya aparıcısı Qari Lineker demişdi: "Futbolda 22 nəfər oynayır, qalib gələn isə həmişə almanlar olur". Reallıqda bu ifadə bir qədər başqa cür idi: "Futbol sadə bir oyundur; 22 nəfər 90 dəqiqə top qovur, sonda isə Almaniya qalib gəlir", – deyə Lineker söyləmişdi. Amma birinci variant daha populyar deyimə çevrilmişdi.

## Qaret Sautqeyt qisasını aldı

1996-cı ildə Avropa çempionatı İngiltərədə keçirildi. Həmin turnirdə də Almaniya millisi yarımfinalda İngiltərə yığma komandası ilə qarşılaşdı. Matç öncəsi KİV-də bir çox məqalələr "Axtunq! Təslim ol! Fris, sənin üçün Avropa Çempionatı – 96 başa çatıb!" kimi başlıqlarla dərc edilmişdi. Doğrudur, jurnalistlər sonra üzr istəmişdilər, amma oyun öncəsi çox gərgin vəziyyət yaranmışdı.

Bu qarşılaşmanın əsas vaxtı da heç-heçə başa çatdı. Komandalar 11 metrlik zərbələrlə qalibi müəyyənləşdirməli oldular. İlk onluğun zərbələri hədəfdən yayınmadı. Sonra elə ilk zərbədə ingilis oyunçu qapı çərçivəsinə düşə bilmədi. Yenə almanlar qalib gəlib finala yüksəldilər və turnirin qalibi oldular. Həmin həlledici 11 metrlik zərbəni vura bilməyən oyunçunun adı Qaret Sautqeyt idi. İndi o, Almaniya millisini 8/1 finaldan evə məyus yola salan İngiltərə komandasının baş maşqçisidir.

2010-cu il Dünya çempionatında da ingilislər almanlarla 8/1 finalda qarşılaşdılar. Hesab 2 – 1 Almaniyanın xeyrinə olanda Frenk Lempard uzaqdan endirdiyi möhtəşəm zərbə ilə topu Manuel Noyerin qapısına vurdu. Top qapı tirinə dəyib xəttdən içəri düşdü. Bu videotəkrardan da aydın görünürdü. Lakin referi qolu hesaba almadı. Nəticədə, almanlar 4 – 1 hesabı ilə ingilisləri darmadağın etdilər. İki gün əvvəl Almaniya millisinin start heyətində oyuna çıxan Tomas Müller, o zaman matçda dubla imza ataraq demişdi ki, bu, 1966-cı ildə finalda vurulan ədalətsiz qolun qisasıdır. Müllerin dediyi və İngiltərəyə qələbə gətirən həmin mübahisəli qolu həmyerlimiz, Böyük Britaniyada bu gün də hamının ehtiramla xatırladığı



Tofiq Bəhramov hesaba almamış və ingilislərin xeyrinə qərar vermişdi.

Avro – 2020-nin qrup mərhələsində daha çox müdafiəyə köklənib praqmatik futbola üstünlük verdiyinə görə azarkeşlər tərəfindən kəskin tənqid edilən İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt iyunun 29-da almanlarla qarşılaşmada arxada daha etibarlı oynamağa qərar verdi. Əlbəttə, baş məşqçini nə qədər istəsən tənqid edə bilərsən, lakin onun yerində olsan çox güman, başqa cür hərəkət etməzdin. Tribunalarında bir boş yer qalmayan "Uembli"də tək qalmısan və bütün ölkə 11 metrlik zərbəni vura bilmədiyin üçün səni lənətləyir. Təbii ki, Sautqeyt hər vəchlə 25 il sonra bu vəziyyətin təkrar olunmasını istəmirdi. Yeri gəlmişkən,



"Uembli"nin tribunalarında yenə bir boş yer belə yox idi.

Yoahim Löv də Almaniyanın macarlarla heç-heçə edib pley-offa vəsiqə qazandıran oyunçuları start heyətdə matça buraxmışdı. Almanlar həqiqətən ilk hissədə daha əzmkar və çevik futbol nümayiş etdirdilər. Lakin ingilislərin baş məşqçisinin planı birinci hissədə özünü tam doğrultdu. İngiltərə komandası öz qapılarının qarşısında almanlara real qol vəziyyəti yaratmağa imkan vermədilər. Əslində Yoahim Lövün planı da həmkarının planından çox fərqlənmirdi və komandası öz qapılarının qarşısında son dərəcə ehtiyatlı oynayırdı. Çünki hər iki komandada istənilən məqamda qol vəziyyəti yarada bilən çox çevik və texnikalı oyunçular vardı.



"Uembli" azarkeşlər ingilislərin müdafiə oyununu fitə tutsa da, bunu heç də hamı dəstəkləmirdi. Çünki heç kim istəmirdi ki, əvvəlki tarixlər təkrarlansın və komandaları bu turniri də məğlub durumda tərk etsinlər. Çünki Lövün yetirmələri qrup mərhələsində nəyə qadir olduqlarını və onlara azacıq fürsət verilsə nələr edə biləcəklərini göstərmişdilər.

Birinci hissənin ən təhlükəli vəziyyəti Tomas Müllerin arxaya ötürmə edərək, topu, bu turnirdə İngiltərə millisinin hesabında olan vur-tut iki qolun müəllifi Rahim Sterlinqə atması ilə yarandı. Rahim topu rəqibin cərimə meydançasına qovdu, yıxıldı və top Harri Keynin qarşısına düşdü. Forvard qapının üç metrliyində topu özündən bir qədər aralı buraxdı və Mats Hummels qola imkan vermədi. Buna qədər də Rahim Sterlinq cərimə meydançasından kənardan qapıya çox əla zərbə endirə bildi. Lakin Noyer gözəl sıçrayışla hələ çevikliyini itirmədiyini nümayiş etdirib zərbəni dəf edə bildi.

Oyunun 33-cü dəqiqəsində almanların da çox əla bir qol fürsəti oldu. Meydanın mərkəzində topu ələ keçirən Haverts cərimə meydançasına tərəf sürət götürən Vernerə gözəl ötürmə etdi. Müdafiəçinin təqibinə baxmayaraq, Verner uzaq küncə yerlə zərbə endirdi. Topu ayaqları ilə qaytaran Cordan Pikford turnirin əvvəlki 3 oyununda olduğu kimi yenə də qapısının toxunulmazlığını qoruya bildi.

Oyunun ikinci hissəsi almanların əla kombinasiyası ilə başladı və bu dəfə Haverts topa güclü zərbə endirdi. Top sanki tüfəngdən açılan güllə kimi bir andaca ingilislərin qapısına sancılacaqdı. Yox, Pikford möhtəşəm çevik sıçrayışla topu qapının üstündən aşırıb, yenə almanları sevincdən məhrum etdi.

Demək olar ki, bütün ikinci hissədə qarşılıqlı hücumlarla çox gərgin oyun davam etdi. Oyunun 75-ci dəqiqəsində artıq qüvvələr nisbətinin kimin xeyrinə olmasına müəyyən aydınlıq gəldi. Hər şeyi Rahim Sterlinqin fərdi ustalığı həll etdi. Məhz onun başladığı hücumdan sonra top Lyuk Şouya ötürüldü, müdafiəçi bir anlıq başını qaldırıb, sonra güclü zərbə ilə topu düz qapının önünə ötürdü. Rahim yenə hamını qabaqladı və turnirdə üçüncü qolunu məhz almanların qapısından keçirdi.

Almanlar bundan dərhal sonra hesabı bərabərləşdirə bilərdilər. 11 il əvvəl qisas haqqında danışan və bu gün qapıçı ilə təkbətək çıxan Tomas Müller, sanki hesabı indicə bərabərləşdirəcəkdi. Yox, Müller əvvəlki sərrast forvarda bənzəmədi və topu qapı çərçivəsindən çox cüzi fərqlə kənara vurdu.

Almaniya kəskin əks-hücumlarını daha da artırdı. Lakin bu gün idman xoşbəxtliyi onların tərəfində deyilmiş. Oyunun əsas vaxtının qurtarmasına 4 dəqiqə qalmış ikinci hissədə meydana çıxmış Qriliş qapı xəttinin qarşısına əla ötürmə etdi. Harri Keyn, nəhayət ki, yıxılaraq başla topu almanların qapısından keçirib turnirdə ilk qolunu vurdu.

Beləliklə, İngiltərə Avro – 2020-də qapısından bir top belə buraxmadan və turnirdə ilk dəfə bir matçda iki qol vuraraq Almaniyanı məğlub etdi. 25 ildən sonra baş məşqçi Qaret Sautqeyt, nəhayət ki, almanlardan öz qısasını aldı. Yoahim Lövün isə məşqçilik karyerası belə ağır məğlubiyyətlə başa çatdı.

## Ukrayna millisi tarix yazdı

Əslində, İsveç millisi ilə Ukrayna yığma komandası arasında qarşılaşmaya sadəcə qəzet üçün növbəti reportajı yazmaq məramı ilə baxırdım. Oyunun favoritinin İsveç olduğunu və qrup mərhələsindəki oyunlarından sonra Andrey Şevçenkonun yetirmələrinin bu mərhələni çətin adlaya biləcəklərini düşünürdüm. Amma oyundan sonra həm Ukrayna adına bir qürur yaşadım, həm də Azərbaycan millisinin belə beynəlxalq turnirlərin finalında oynamamasına çox acıdım. Düşündüm, görəsən biz də nə vaxtsa Qlazqoda stadionda oturub Azərbaycan millisinin Avropa çempionatının finalının qrup mərhələsində də olsa qarşılaşmalarını səsimiz batana qədər seyr edə biləcəyikmi? Niyə səsimiz batana kimi deyirəm, çünki bir zamanlar indiki Tofiq Bəhramov adına stadionda hər dəfə "Neftçi" futbol klubunun keçmiş sovet respublikalarının komandaları ilə əzmkar oyununu seyr edəndən sonra qışqırmaqdan səsimiz iki-üç gün batırdı. Nə isə, deyəsən xəyallarımızın gerçəkləşməsi hələ çox uzaqdadır.

Amma Ukraynanın futbol üzrə milli komandası öz azarkeşlərinin xəyallarını bu Avropa çempionatında artıqlaması ilə gerçəkləşdirməyi bacardılar. Qrup mərhələsində üçüncü olmasına baxmayaraq, Andrey Şevçenkonun yetirmələri Şimali Makedoniya millisi üzərində qazandıqları yeganə qələbə və rəqib qapılarına vurduqları topların sayına görə pley-offa yüksələ bildilər. Lakin onların 8/1 finalda qarşılaşacağı İsveç heç də asan rəqib deyildi.

Ona görə də iyunun 29-da "Hemden Parka"da baş tutan qarşılaşma ilk dəqiqələrdən çox gərgin keçdi. Oyun başlayandan bəlli oldu ki, Şevçenko nəticə naminə baxımlı futboldan imtina etməli olub. İlk dəfə idi ki, Ukrayna Avro – 2020-də 3 mərkəz müdafiəçisi ilə oyuna çıxmışdı. Baş məşqçi yaxşı bilirdi ki, isveçlilər fiziki hazırlıq baxımından onun yetirmələrini üstələyirlər.

İlk təhlükəli vəziyyəti Ukrayna millisi yaratdığı kimi ilk qolu da onlar vurdular. Şevçenkonun drujinası meydanın bütün eninə 5 müdafiəçi ilə hücumlarının genişliyindən istifadə edərək əla kombinasiya qurdu. Matçın 27-ci dəqiqəsində meydanın sağ küncündə topu qəbul edən kapitan Yarmolenko aşağı küncdən hücuma atılan Zinçenkoya möhtəşəm ötürmə etdi. Oyunun ən yaxşılarından olan Zinçenko topu bir toxunuşla qapıya yönəltdi. İdeal bir zərbə və qol. Ukrayna heç kimin gözləmədiyi bir məqamda hesabda irəli çıxdı.

Bundan dərhal sonra isveçlilər hesabı bərabərləşdirmək üçün hücuma atıldılar. Anderssonun komandası oyunu bütövlükdə özünün "azad rəssamı" Forsberqin üzərində qurmuşdu və bütün nəzərlər onda idi. Forvard etimadı doğrulda bildi. 43-cü dəqiqədə "Real Soseydad"da forma geyən forvard Aleksander İsak topu ukraynalılara məxsus meydanın mərkəzində duran Emil Forsberqə ötürdü. Forsberq bir-iki çevik hərəkətdən sonra topu uzaqdan qapıya tuşladı. Top ukraynalıların müdafiəçisi İlya Zabarnoya dəyib istiqamətini dəyişdiyindən qapıçı qola mane ola bilmədi.

Heç-heçə matçı əlavə vaxta apardı. Bu hissənin əsas məqamı ukraynalı futbolçu Artyom Besedinə ağır zədə yetirən isveçli Markus Danielsonun oyundan qovulması oldu. Lakin oyunun son dəqiqələrinə qədər hesab dəyişmək bilmirdi. Hamı kimi mən də 11 metrlik zərbələrlə oyunun taleyinə aydınlıq gələcəyini gözləyirdim. Bu məqamda sanki möcüzə baş verdi. Sol cinahdan Zinçenko topla xeyli irəlilədi və topu hava ötürməsi ilə düz qapının qarşısına vurdu. Oyuna əlavə vaxtda çıxmış Artyom Dovbik suya atılırmış kimi başla topu qapıya vurdu. Stadion uğuldadı. Bu, Ukraynanın Avropa turnirlərində yeni tarixinə möhürünü vuran qol oldu. Oyunun 121-ci dəqiqəsində vurulan bu qol Ukraynaya 4/1 finala vəsiqə verdi.

Beləliklə, 4/1 finalın bütün iştirakçıları və qarşılaşmaları bəlli oldu.

Sabah, iyulun 2-də Belçika –İtaliya və İsveçrə – İspaniya matçları keçiriləcək.

İyunun 3-də isə İngiltərə – Ukrayna və Çexiya – Danimarka matçları oynanılacaq.

Çexiya millisi ilə Danimarka yığma komandası arasında qarşılaşmaya doğma Bakının Olimpiya stadionu evsahibliyi edəcək.

**İlqar RÜSTƏMOV, "Xalq qəzeti"**